# BÖYÜK QEYBƏT DÖVRÜNDƏ ALİMLƏRİN MƏQAMI

**MÜƏLLİF: EHSAN ZAHİRİ**

# BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM

## Ön söz

Həmd-səna və tə’rif o Allaha məxsusdur ki, bizə minnət qoyaraq özünün ən böyük vəlisi İmam Zaman (əleyhissalam)-ın ümumi naiblik məqamını öhdələrinə alan fəqihlərin vilayəti sayəsində qərar vermişdir. Xüsusilə müasir dövrdə İran İslam respublikasının banisi Həzrət İmam Xomeyni şiə mərcəiyyətinin məqamını, dini rəhbərlik və fəqahətin əzəmətini dünyaya sübut etmiş, insanların xeyrinə olan bir ictimai quruluşu isbat edən bu niyabəti öhdəsinə almışdır. Bu böyük tarixi hadisə, yə’ni seyyid Cəmaləddin Əsədabadinin hərəkatının, Mirza Şirazinin tənbəki hərəkatının, Şeyx Fəzlullah Nurinin məşrutə hərəkatının və Mərhum Müdərris və Ayətullah Kaşaninin hərəkatlarının ardınca baş

verən islami inqilab alimlərin xalq kütlələri arasındakı böyük nüfuzunu və islamın əməli olaraq həyata keçməsini bütün dünyaya göstərmişlər. Buna görə də islam düşmənləri bu dini qüdrəti həm daxildən, həm də xaricdən nişan almış və dini alimlərin və rəhbərlərin əleyhinə zəhərli təbliğatlarla hücumlara başlamışlar. Onların əsas məqsədi bu yüksək mədəni mövqeyi məhv etməkdən ibarətdir.

Bu hadisələr nəticəsində biz, alimlərin əzəmətini və onların Böyük Qeybət dövründəki ümumi niyabətini qısa və faydalı şəkildə yazmağı nəzərə aldıq ki, cəmiyyətin tanınması istiqamətində müəyyən xidmətlər edərək, bu kimi həmlələrin qarşısını alaq, elm və əməl baxımından bu böyük və əzəmətli ilahi ne'mətin qədrini biləк. Allah-taala buyurur:

لَئِن شَكَرْتُمْ لأَزِيدَنَّكُمْ وَلَئِن كَفَرْتُمْ إِنَّ عَذَابِي لَشَدِيدٌ

**«Əgər (ilahi) ne'mətlərin şükrünü yerinə yetirsəniz hökmən onu artıracağıq, əgər onlara qarşı nankorluq etsəniz həqiqətən Mənim əzabım şiddətlidir.»[1]**

Allah-taalanın elmi mərcə' və fəqahət məqamını insandan almasından da böyük əzab ola bilərmi?! Biz ömrümüz boyu bə'zi şəxslərin tərəqqi edib sonradan süquta uğramasının səbəbini araşdırdıqda

---

[1] «İbrahim» surəsi, ayə: 7

onların bu böyük ne'mətlər qarşısında nankorluq etdiyini görmüş oluruq. Deməli, ilahi alimlərin məs'uliyyəti, mənsəb və məqamları olduqca aydındır, onlar Peyğəmbərlərin varisləri, ilahi hökmlərin icra və bəyan ediciləridirlər. Onlar aləmlərin Rəbbi olan Allahın hüzurunda Peyğəmbərə məxsus olan bir növ məqama malikdirlər. Camaat da bu ilahi elm xadimlərinə bəsirət gözü ilə baxaraq onları islam hökmlərinin bəyan və icrasında Peyğəmbərlərin və imamların canişini hesab etməli, onlarla oturub durmalı, onların söhbətlərini, mo'izə və xitabələrini möhtərəm saymalı, alimlərin elmindən bəhrələnməli və nəticədə öz dünya və axirət səadətlərinə nail olmalıdırlar. Onlar ilahi aləmlərə qarşı azacıq belə hörmətsizliyi rəva görməməlidirlər, çünki bu iş Peyğəmbərlərin və mə'sum İmamların göstərişindən boyun qaçırmaq, onların əmrlərinə e'tinasız yanaşmaqdan əlavə, kəbirə günahlardan sayılır. Əgər bir cavanın, yaxud yeniyetmənin, yaxud uşağın yanında din aliminə hörmətsizlik edilsə, onun din və Qur'andan ayrılıb uzaqlaşması, küfrə, fəsada və zülm toruna düşməsi mümkündür. Buna görə də tarix boyu onun özünün və nəsillərinin düz yoldan çıxmasının günahı bu bədbinliyin səbəbkarı olan şəxsin öhdəsinədir. Ümidvaram ki, mütəal Allah bizi öz razılığına və Ona itaət etmək

istiqamətində rəbbani alimlərin sayəsində qərar versin.

Ehsan Zahiri
Zil-həccə 1421, Qurban bayramı

# Birinci fəsil: Qur'anda alimlərin məqamı

## Alimlərin dərəcələri

Qur'ani-kərimdə buyurulur:

يَرْفَعِ اللَّهُ الَّذِينَ آمَنُوا مِنكُمْ وَالَّذِينَ أُوتُوا الْعِلْمَ دَرَجَاتٍ

«**Allah, sizlərdən iman gətirənlərin dərəcəsini yüksəldər və elm (şüur, agahlıq və mə'rifət) verilən şəxsləri müəyyən dərəcələrə nail etdirər.**»[1]

فَضَّلَ اللّهُ الْمُجَاهِدِينَ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ عَلَى الْقَاعِدِينَ أَجْرًا عَظِيمًا

«**Allah, öz malları və canları ilə cihad edənlərə, cihada getməyənlərdən üstünlük bağışlayar.**»[2]

وَمَنْ أَحْيَاهَا فَكَأَنَّمَا أَحْيَا النَّاسَ جَمِيعًا

«**Hər kəs bir nəfəri diriltsə (onu azğınlıq və cəhalət ölümündən xilas etsə) sanki bütün**

---

1 «Mücadilə» surəsi, ayə: 11

2 «Nisa» surəsi, ayə: 95

**insanları diriltmiş olur.**»[1]

İlahi alimlər də insanların ölmüş bədənlərinə ruh üfürürlər.

### İncə nöqtələr:

Qur’ani-kərimdə şəhidlər, mücahidlər və mö’minlər barəsində «əcrən» və «dərəcətən» kəlmələri tək halda işlənir, lakin alimlərlə əlaqədər cəm formasında «dərəcat» kəlməsi işlədilir. Şübhəsiz, o ilahi alimlər nəzərdə tutulur ki, bir insanı hidayət etdikləri təqdirdə sanki bütün insanları diriltmiş olurlar. Onların məqamları hamının məqamından yüksəkdədir.

## Alimlərdən soruşmaq

Mütəal Allah insanlara əmr edərək buyurur:

فَاسْئَلُواْ أَهْلَ الذِّكْرِ إِن كُنتُمْ لاَ تَعْلَمُونَ

«**Əgər bilmirsinizsə, zikr əhlindən soruşun.**»[2]

Allah hökmlərindən və ilahi elmlərdən agah olan mə’sum İmamlar kimi şəxsiyyətlər «zikr əhli»nin kamil nümunələridir. Sonrakı mərhələlərdə isə onlar tərəfindən tə’yin olunan, kiçik qeybət dövründə xüsusi naiblər, böyük qeybət dövründə isə ümumi naiblərdən ibarət olan naiblər, vəkillər və əmirlər

---

[1] «Maidə» surəsi, ayə: 32

[2] «Nəhl» surəsi, ayə:43 və «Ənbiya» surəsi, ayə:7

gəlir, yə'ni imamlardan sonra bütün şəraitlərə malik olan fəqihlər öz dövrünün zikr əhlinin nümunələridir, onların verdikləri fətva şər'i baxımdan höccət və dəlil sayılır. Əks halda Allahın bu işə əmr etməsi mə'nasız olardı. Soruşmaq lazım olduğu halda itaət etmək də hamı üçün ilahi bir vəzifədir.

## İncə nöqtələr:

1. Əgər insan alimlərin elmi məqamından bəhrələnmək istəsə cavab verən şəxsə e'timad etməli və ona itaət etməyi özünə vacib bilməli, onların verdiyi cavabı şər'i bir dəlil hesab etməlidir. Çünki Allah yalnız kəlamın özü höccət olduğu təqdirdə soruşmağı əmr edər.

2. Müəyyən şəxslər mə'sum İmamlardan sual soruşurdular, İmam öz səhabələrinə xitab edərək buyururdu: «Siz onun cavabını verin.» Yaxud Bəsrədən bir şəxs gəlib sual edirdi, İmam buyururdu: «Bizim nümayəndəmiz oradadır. O nə deyirsə haqdır.»

İmam (əleyhissalam) öz şagirdlərinə buyurardı: «Fətva verin və ilahi hökmləri bəyan edin.» Bu da göstərir ki, ilahi alimlər İmamın həm hazır olduğu, həm də qeybdə olduğu dövrdə zikr əhlinin nümunələridir. Deməli, haqqı bəyan edən İmamın sözü və əməli bu barədə hamı üçün höccəti tamam etmişdir, belə ki, alimlərdən elm kəsb etmək və

onlara itaət etmək lazımdır.

## Fitrət yolunda elm

فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًا فِطْرَتَ اللَّهِ الَّتِي فَطَرَ النَّاسَ عَلَيْهَا

«**Üzünü (öz qüdrət, hünər və iste'dadını) Allahın dininə və islama yönəlt, bu, Allahın yaratdığı xilqətdir ki, camaatı o əsasda yaratmışdır.**»[1]

Fitrət yolu olan dini tanımaqda müəllim görməyə və təhsil almağa ehtiyac duyulur. İnsan bir yolu tanımayınca onu getməyə qadir ola bilməz. Dini düşünüb dərk etmək və mə'rifət kəsb etmək üçün zikr əhlindən ibarət olan mütəxəssislərdən istifadə etmək lazımdır. İlahi fitrətdən ibarət olan yaradılış yolunda qərar tutmağın iki yolu vardır: Biri bundan ibarətdir ki, mütəxəssis insanın özü müctehid və fəqih olsun, digəri isə bundan ibarətdir ki, bunlara təqlid edərək elm əxz etsin. Deməli, alimlərin və fəqihlərin sözləri şər'i və əqli baxımdan höccət, dəlil və bürhandır. İnsan onlara itaət etməyincə Allahın razılığından ibarət olan hədəfə çatmayacaqdır.

---

1 «Rum» surəsi, ayə:30

## Təfəkkür və alimlər

وَتِلْكَ الْأَمْثَالُ نَضْرِبُهَا لِلنَّاسِ وَمَا يَعْقِلُهَا إِلَّا الْعَالِمُونَ

«**Biz o misalları camaat üçün gətiririk, yalnız alimlər və mütəfəkkirlər o misallarda fikirləşirlər.**»[1]

Buna görə də məhz onlar zərif, incə, lətif və ibrətamiz nöqtələri dərk edərək bəhrələnirlər.

### İncə nöqtələr:

1. Qur’anın gətirdiyi misallar hiss olunan və sadə bir tərzdə olub mühüm mətləbləri bəyan edir, çox çətin və əqli məsələləri aydınlaşdırır ki, insanlar həqiqətləri dərk edə bilsinlər.

2. Qur’ani-kərim e’tiqadi, əxlaqi, iqtisadi və sair kimi məsələləri ən yaxşı başa salmaq yolu olan misal gətirməklə nəql edir və tarixi nümunələr, misallar və mətləbləri bəyan etmək yolu ilə mühüm elmi məsələləri bəyan edir. Bunların hamısında ilahi alimlər və mütəfəkkirlər Allahın sonsuz elm dəryasının üzgüçüləri kimi Qur’andan bəhrələnir, bu dəryaların ənginliklərində olan qiymətli sədəf və gövhərləri çıxarıb cəmiyyətə təqdim edirlər ki, insanı, həyatın bütün yönlərində fitrət və kamal yoluna hidayət etsinlər.

---

[1] «Ənkəbut» surəsi, ayə:43

# Alimlər və Allahdan qorxmaq

إِنَّمَا يَخْشَى اللَّهَ مِنْ عِبَادِهِ الْعُلَمَاء

«**Allah bəndələrindən yalnız alimlər Onun dərgahında qorxurlar.**»[1]

Öz mə'rifət, bəsirət və irfanları ilə Allaha aşiq olan ilahi alimlər Allahın əzəmət və cəlalı müqabilində lərzəyə düşərək qorxur və aşağıdakı ayənin buyurduğu şəxslərdən olurlar:

إِنَّمَا الْمُؤْمِنُونَ الَّذِينَ إِذَا ذُكِرَ اللّهُ وَجِلَتْ قُلُوبُهُمْ وَإِذَا تُلِيَتْ عَلَيْهِمْ آيَاتُهُ زَادَتْهُمْ إِيمَانًا وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ

«**(Həqiqi) mö'minlər o kəslərdir ki, hər vaxt Allahı yad etdikdə onların qəlbləri qorxur, onlara ilahi ayələr tilavət olunarkən imanları artır və yalnız öz rəblərinə təvəkkül edirlər.**»[2]

## İncə nöqtələr:

1. **Xəşyət** – Allahın heybət, cəlal və əzəməti ilə əlaqədar mə'rifət və məhəbbət üzündən yaranan bir qorxudur. Amma xovf isə ilahi əzabdan və günahların qorxusundan yaranan bir halətdir.

2. Həqiqəti tanıyanlar Allahın hüzurunda xüzu-xüşu, xovf və xəşyətə malik olurlar.

3. Mə'rifətin səviyyəsi nə qədər yüksələrsə

---

[1] «Fatir» surəsi, ayə:28

[2] «Ənfal» surəsi, ayə:2

Allahın ədalət və heybətindən yaranan qorxu da bir o qədər çoxalar.

4. Bəndəçilik olmadan əldə edilən elmin faydası yoxdur və insanda xovf ilə ümid məqamını yaratmır.

## Fəqih olmaq üçün hicrət etmək

«Nəfr» ayəsi alimlərin hidayət edib yol göstərməsinin xüsusi məqamına dəlalət edir. Bu hədəf o zaman həyata keçir ki, camaat onlara verilən göstərişlər müqabilində öz vəzifələrinə əməl etsinlər. Əks halda, ümmətin arasından köç etməyin mə'nası olmazdı:

فَلَوْلاَ نَفَرَ مِن كُلِّ فِرْقَةٍ مِّنْهُمْ طَآئِفَةٌ لِّيَتَفَقَّهُواْ فِي الدِّينِ وَلِيُنذِرُواْ قَوْمَهُمْ إِذَا رَجَعُواْ إِلَيْهِمْ لَعَلَّهُمْ يَحْذَرُونَ

«**Nə üçün onlardan bir qrupu dində agahlıq tapmaq üçün köç etmirlər ki, öz qövmlərinə doğru qayıtdıqda onları qorxutsunlar, bəlkə onlar da qorxalar.**»[1]

### İbrətli nöqtələr:

1. Allahın dinini öyrənib sonra öyrətmək üçün hicrət edilməlidir və alimlər öz qövmlərini və insanları Allahdan qorxutmalıdır

2. İnsanlar günahlardan uzaq olmaqla, vacib

---

[1] «Tövbə» surəsi, ayə:122

əməlləri yerinə yetirməklə Allahın bəyəndiyi təqvanı əldə etməlidirlər.

3. Yuxarıdakı ayədəki mədəni və elmi səfərbərlik ilahi bir vəzifə sayılır və ondan üz çevirməyin cəzası vardır. Buna görə də müharibə üçün hazırlığa, qabiliyyətə malik olanlar müharibədə, ilahi elmləri kəsb etmək üçün bacarıq və hazırlığı olanlar isə məhz bu istiqamətdə səfərbər olunmalıdırlar.

4. Əgər fəqihlərə itaət etmək insanların vəzifəsi olmasaydı bu ayədəki elmi səfərbərlik və qayıtdıqdan sonra insanları hidayət etmək mə’nasız olardı.

5. Camaatın vəzifəsi bundan ibarətdir ki, böyük qeybət dövründə alimlərin əmr və fərmanlarına tam diqqət yetirsinlər, öz həyatlarında onların göstərişlərini əməli olaraq həyata keçirsinlər ki, əbədi xoşbəxtliyə nail olsunlar. Çünki onlar Allah hökmlərini Qur’andan və Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) sünnətindən əldə edirlər.

## İkinci fəsil: Əql və siyrə baxımından alimlərə müraciət etməyin vacibliyi

Əqli dəlil, aqil insanların rəftarları və ümum camaatın arasında mövcud olan qanunlar mə’lumatsız şəxsin alimə müraciət etməsinin

vacibliyini sübut edir. Buna əsasən ilahi alimlər dini ixtisas məqamında camaatın müraciət yeri hesab olunur və əqli dəlil vasitəsilə camaatın onlara itaət və təqlid etmələrinin vacibliyini sübuta yetirir. Belə ki, camaat təbabət, mühəndislik, sənətkarlıq və sair kimi sahələrdə həmin sahədəki mütəxəssislərə müraciət edirlər, vəhy və nübüvvətin dərk olunmasında, dini e'tiqadlara əməl edilməsində də ya onların özü mütəxəssis, müctehid, alim və arif olmalı, yaxud bu elmi məqama nail olan şəxsə təqlid etməlidirlər ki, dünya və axirət xoşbəxtliyinə, bəşər fitrəti yolundan ibarət olan insani kamallara nail olsunlar.

## Üçüncü fəsil: Elm və hikmət ən yaxşı ilahi hədiyyədir

Qur'ani-kərimdə buyurulur:

يُوتِى الْحِكْمَةَ مَن يَشَاء وَمَن يُؤْتَ الْحِكْمَةَ فَقَدْ أُوتِىَ خَيْرًا كَثِيرًا وَمَا يَذَّكَّرُ إِلاَّ أُوْلُواْ الأَلْبَابِ

«**Allah hikməti istədiyi şəxsə əta edir, hər kəsə hikmət verilsə ona çoxlu xeyir verilmiş olur. Əql sahiblərindən başqaları bunu dərk etməzlər.**»[1]

Yə'ni, yalnız ilahi əqlə malik olanlar bu ayənin öyüd-nəsihətlərindən tə'sirlənirlər. Qur'an

---

[1] «Bəqərə» surəsi, ayə:269

ayələrində böyük ilahi ne'mət olan hikmət ilahi Peyğəmbərlər kimi xüsusi insanlara verilmişdir. Belə ki, ilahi məşiyyət əsasında xüsusi məqamdan bəhrələnən şəxslər, başqa sözlə, haqq yolunun alimləri ilahi hikmətin layiqli məhəllidir. Mütəal Allah da müəllimlik məqamında hikmət və elmi bəşərə öyrətmək üçün onu xüsusilə Peyğəmbər və övliyalarına təqdim etmişdir. Bu da məsələnin nə qədər əhəmiyyət kəsb etdiyini göstərir. Çünki insanlara elm öyrədən kəslər ilahi bir iş görür və bu yolda öz vəzifələrini yerinə yetirirlər. Deməli, onların məqam, mənzilət, məşğuliyyət və əməlləri fəzilət baxımından bir kəsə gizli deyil.

Tarix, elm və hikməti Peyğəmbərlərin ən yaxşı, ən mühüm və ən əsaslı hədiyyəsi kimi bəyan edir ki, tarix boyunda ən böyük ilahi vəzifəni yerinə yetirə bilsinlər. Buna görə də bu dövrdə Allahın mərhəmətinə layiq görülənlər, üzlərinə elm və hikmət qapısı açıq olanlar məhz İmam Sadiq (əleyhissalam)-ın buyurduğu kəlamın nümunələridir:

اَلعِلمُ نورٌ يَقذِفُهُ الله فى قَلبِ مَن يَشاء

«**Elm bir nurdur ki, Allah onu, hər kəsin qəlbində istəsə qərar verər.**»[1]

Alimlərin qəlbləri və əqlləri ilahi məşiyyət və

---

[1] «Misbahuşşəriət» səh.16

iradə ilə nurani olmuşdur, ilahi nurun kəsb olunması yeri onlardır. Həmişə ilahi alimlərlə oturub-durmağa, onlarla söhbət etməyə əhəmiyyət verin və onların mə'nəvi nurlarından istifadə edin.

**İncə nöqtələr:**

1. Hikmət – varlıq aləminin sirləri barəsində mə'rifət kəsb etmək, Qur'an həqiqətlərindən agahlıq əldə etmək, danışıqda, rəftarda, əməldə və s. kimi yönlərdə Haqqa çatmaqdan ibarətdir. Bir sözlə, hikmətin daha geniş mə'nası vardır.
2. Hikmət qaynar bir həyat çeşməsi, bütün xeyrlərin və yaxşılıqların mənşəyidir.
3. Hikmət və elm bəşərin zülmətlərdə və zəlalətlərdə hidayət olunması üçün bir nurdur.

# Dördüncü fəsil: Alimlər və ilahi rəhmət

İlahi alimlər Allahın geniş və sonsuz rəhmətinin şamil olduğu insanlardır. İmam Baqir (əleyhissalam) buyurur:

رَحِمَ اللّه عَبداً أَحيا العِلمَ

«**Allah rəhmət eləsin bizim elmimizi dirçəldən bəndəyə!**»

Ravi «Elminizi dirçəltməyin mə'nası nədir?» – deyə soruşduqda həzrət buyurdu: «Din və təqva əhlinin ilahi elmlər barəsində mübahisəsi

(müzakirəsi) elmlərin dirilməsinə səbəb olur.»[1]

## İbrətli nöqtələr:

1. Allahın rəhməti ali ilahi ne’mətlərdəndir və Yusif Peyğəmbər ən çətin şəraitlərdə deyir:

اِلاَّ مَا رَحِمَ رَبِّى

«**Allahın rəhmətinin nicat verdiyi şəxslərdən başqa (əmmarə nəfsi hamını pisliklərə sürükləyir).**»[2]

Ariflərin mövlası Həzrət Əmirəl-mö’minin Əliyyibni Əbitalib (əleyhissalam) «Kumeyl» duasında mütəal Allaha xitab edərək ərz edir:

وَاِدخالَکَ اِيّاىَ فى سَعَةِ رَحمَتِک

«**Məni özünün geniş rəhmətinə daxil et!**»

Öz qələmləri, dilləri və təfəkkürləri ilə həqiqətlərin canlanmasına çalışan alim bəndələrə ilahi rəhmət şamil olur. Bundan da gözəl və yüksək bir məqam ola bilərmi?!

2. Hər bir fərdin elmi bəhsləri və müzakirələri hər bir şəraitdə onu kamala və tərəqqiyə sövq edir. Hətta elmi mübahisələrdə dindarlıq və ilahi təqva ilə yanaşı olan yazı və söhbətlər bütün müvəffəqiyyətlərin açarıdır. Bu elmi yığıncaqlar və müzakirələr riyakarlıqdan, özünü bəyənməkdən, ilahi xüsusiyyəti olmayan hər bir şeydən pak

---

[1] «Üsuli-kafi», 1-ci cild, səh.41

[2] «Yusif» surəsi, ayə:53

olmalıdır ki, insanı alim və arifcəsinə olan me’raca çatdıra bilsin.

# Beşinci fəsil: Alimlərlə oturub durmaq

İmam Baqir (əleyhissalam) buyurur:

تَذاكُرُ العِلم دَرَاسَةٌ وَ الدَّرَاسَةُ صَلاةٌ حَسَنَةٌ

«**Elmi mübahisələr dərsdir, dərs isə namaz və gözəl duadır.**»[1]

İmam Sadiq (əleyhissalam)-dan nəql olunub ki, Rəsuli Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur: «Allah-taala buyurmuşdur:

تَذاكُرُ العِلم بَينَ عِبادِى مِماتُحى عَلَيهِ القُلوبُ المَيتِهِ اِذا هُمُ اِنتَهوا فِيه اِلى اَمرى

«**Mənim bəndələrimin arasında elmi mübahisələr ölmüş qəlblərin dirilməsinə səbəb olur, o zaman ki, elmi mübahisələr ki, Mənim əmrimlə sona çatar.**»[2]

İnsanları dini işlərə, üsuliddin və füruiddinə doğru hidayət etmək qəlbləri dirildir, ruhlara nicat verir və insan əqlini çiçəkləndirir.

**Mühüm məsələlər:**

---

[1] «Üsuli-kafi», 1-ci cild, səh.50

[2] Yenə orada, 6-cı hədis

1. İlahi elmlərin tədris olunduğu siniflər və yığıncaqların dəyəri ibadət səviyyəsində, hətta onların ən yaxşısıdır, çünki elm sahəsində bir anlığa təfəkkür etmək illərlə (təfəkkürlə yanaşı olmayan) ibadətdən daha faydalı, onun dünya və axirət dəyəri daha yüksəkdir.

2. Ən yaxşı dərs ilahi elmlərin (füruiddin, üsuliddin və sair) mübahisə edilməsidir.

3. Elmi mübahisələr insanların vücüdlarının fiziki və mə'nəvi nəzərdən dirilməsinin ən əsaslı amilidir. Çünki ruhi yüksəklik insanın fiziki cəhətdən sağlam olmasına, tərəqqiyə yüksəlməsinə səbəb olur.

4. İlahi elmlərin müzakirəsi o vaxt dəyərli olur ki, yalnız Allahın xatirinə və ixlasla olsun.

## Altıncı fəsil: Alimləri əvəz edən bir şəxs yoxdur

Həzrət Əmirəl-mö'minin Əliyyibni Əbitalib (əleyhissalam) buyurur:

فَإذا ماتَ العالِم ثُلِّمَ فِی الاسلامَ ثلمَةٌ لا یَسُدُّها اِلا خَلفٌ مِنُه وَ طالِبُ العِلمِ یَستَغفِرُ لَهُ کُلُ المَلائِکَة وَ یَدعُو لَهُ مَن فِی السَّماءِ وَ الارض

**«(Müsəlman) bir alim dünyadan gedərkən onun cəmiyyətdə yerinin boşluğu, çatışmamazlığı hiss olunur ki, heç bir şey onun əvəzini verə**

**bilməz. Yalnız bu alimlərin özünün canişini (elm kəsb etmək dalınca gedən şəxslər) bu boşluğu ödəyə bilər. Bütün mələklər, yerdə və göydə olan bütün canlılar belə şəxs üçün istəğfar edərlər.**»[1]

Bütün varlıq aləmi alimlərin qorunması üçün istiğfar edir, bu da Allah tərəfindən onlar üçün dünya və axirət təhlükələrindən qorunmasına səbəb olur.

## İbrətli nöqtələr:

1. Alimlərin ehtimal üzrə elm, agahlıq, qəsdən və həvayi nəfs üzündən olmayan xəta və günahları bağışlanır.

2. Bütün varlıq aləmi – istər suda və quruda yaşayan heyvanlar, istərsə mələkələr olsun, hamılıqla ilahi alimlər üçün istiğfar edirlər.

3. Alimlərin vücudunun genişliyini göstərmək üçün bu kifayətdir ki, onların adları bütün varlıqların dilinin əzbəridir.

4. Bütün mələklər və canlılar alimləri tanıyırlar. Əgər tanımasaydılar onlar üçün istiğfar etmələrinin heç bir mə'na və məfhumu olmazdı.

5. Varlıq aləmindəki canlıların bu istiğfarı göstərir ki, alimlər yüksək ilahi məqamlara malikdirlər. Əlbəttə, onlar mə'sum və günahsız deyirlər və onların ismətli olmasına təsəvvür etmək yersizdir.

---

[1] «Biharul-ənvar», 2-ci cild, səh.44

Amma «filan alim siyasi xətaya düçar olub ədalətdən düşmüşdür» – deyilməsi düzgün deyildir. çünki yalnız günahın təkrar edilməsi insanı ədalətdən xaric edir, nəinki başqalarının zövqü və səliqəsi ilə uyğun gəlməyən müəyyən mətləblərin bəyan edilməsi.

# Yeddinci fəsil: Alimlərə ehtiram

İmam Sadiq (əleyhissalam) buyurur:

مَن اَكرَم فَقيها مُسلِماً لَقَى اللّه يَومَ القيامَةِ وَ هُو عَنهُ راضٍ وَمَن اَهانَ فَقيهاً مُسلِماً لَقَى اللّه يَومَ القيامَةِ و هُوَ عَليهِ غَضبان

«**Hər kəs müsəlman bir fəqihə ikram (hörmət) eləsə qiyamət günündə Allahın ondan razı olduğu bir şəkildə Onun hüzuruna gedər. Hər kəs müsəlman bir fəqihə hörmətsizlik etsə Allah-taala ilə, Allahın ona qəzəbli olduğu halda görüşər.**»[1]

## İbrətli nöqtələr:

1. Alimlər xüsusi ilahi hörmətə və ehtirama layiqdirlər, onlara qarşı ehtiramsızlıq və təhqir mütəal Allahın qəzəbinə səbəb olur.
2. Alimlərə hörmətsizlik göstərib onları təhqir edənlər «məğzubun-əleyhim»in nümunələridir və namazda (ğeyril-məğzubi əleyhim... deyərkən) özlərinə ilahi qəzəbdən nicat verə bilməzlər.

[1] «Biharul-ənvar», 2-ci cild, səh.44, 13-cü hədis

3. Mö'min insana bu kimi təhqirlərin təkvini tə'sirləri dünya və axirətdə zahir olur. çünki Allah mö'minlərin başçısıdır, Allah yanında böyük məqama malik olan alimlər xüsusi ehtirama malikdirlər.

## Səkizinci fəsil: Alimlərin məqam və fəzilətləri

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (əleyhissalam) buyurur:

فَإنّ العالمَ اَعظَمُ اَجراً مِنَ الصائم القائِمِ المُجَاهِدِ فِی سَبِيلِ اللهِ

«**Həqiqətən alimin əcr və savabı Allah yolunda cihad edərək gecələri namazla keçirən, gündüzləri isə oruc tutan şəxsin savabından daha böyükdür.**»[1]

### İbrətli nöqtələr:

1. İlahi alimlər insanları, Allahın buyurduğu namaz, oruc, cihad və ilahi hökmlərə doğru hidayət edən şəxslərdir.

2. Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur:

اِذا كانَ يَومَ القِيَامَةِ وُزِّنَ مِدَادُ العُلَماء بدَماءِ الشُهداء فَيُرَجِّحُ مِدادُ العُلَماءِ عَلَی دِماءِ الشُهَدَاء

---

[1] «Biharul-ənvar», 2-ci cild, səh.43

«**Qiyamət günü olduqda alimlərin qələmləri şəhidlərin qanı ilə müqayisə olunar və alimlərin qələmləri şəhidlərin qanından ağır gələr.**»[1]

Çünki şəhid yetirən və mö'min insan tərbiyə edən alimlər həqiqi mücahidlər, zahidlər və abidlərdir, ilahi nur onların bərəkətinə cəmiyyətdə olmuş və olacaqdır.

# Doqquzuncu fəsil: İlahi alimlərin məqamı

Peyğəmbər-Əkrəm buyurur:

**يَا عَلُّى! نَومُ العالِمِ اَفضَلُ مِن اَلف رَكعة يُصليها العَابَدُ يَا عَلُّى! لا فَقرَ اَشَدُّ مِن الجهل و لا عَبادَةَ مِثلُ التَّفَكّر**

«**Ya Əli! Alimin yuxusu abidin qıldığı min rəkətdən fəzilətlidir. Ya Əli! Cəhalətdən şiddətli fəqirlik, təfəkkür kimi olan bir ibadət də yoxdur.**»[2]

## İbrətli nöqtələr:

1. Alimin hətta yuxusunun belə dəyəri vardır, çünki onun vücudunun genişliyi yuxu aləmində də hər bir şəxs üçün ilahi əzabların və bəlaların dəf edilməsinə, həmçinin asudəliyinə səbəb olur.

2. Mədəni fəqirlik, dini cəhətdən müstəz'əf olmaq

---

[1] Yenə orada, 2-ci cild, səh.16.

[2] «Biharul-ənvar», 2-ci cild, səh.66

bütün bədbəxtçiliklərdən pisdir.

3. İnsanlar üçün bir çarə qılmaq fikrində olan nicatverici təfəkkür Allaha ibdət etməkdən yüksəkdir. (Allaha ən yüksək ibadətdir) cümlənin bu cür deyilməsi bəlkə daha doğru olar.

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur:

عُلَماءُ اُمَّتی کأنبیاءِ بَنِی اِسرائیل

«**Mənim ümmətimin alimləri Bəni-İsrail Peyğəmbərləri kimidir.**»[1]

4. Bu təşbihdə alimlərin yüksək məqamı böyük bir mətləbi bəyan edir. Məsələn, Həzrət Musa (əleyhissalam) Bəni-İsrail Peyğəmbərlərindəndir və Allah dərgahında müqərrəb şəxsdir, böyük ehtirama malikdir. Onun risalət və nübüvvət barəsində olan məqamı bu kiçik kitaba sığmaz.

5. İlahi Peyğəmbərlər Allah hökmlərini bəyan edən təbliğatçılar idi və ümmətin vəzifəsi budur ki, heç bir qeyd-şərt olmadan onlara tabe olsunlar. Alimlərin, xüsusilə böyük qeybət dövründə olan məqamları bundan ibarətdir.

6. Fəqih ilahi hökumətin təşkil olunub Allah qanunlarının icra etmək, tağut ilə mübarizə aparıb batil hökumətləri devirmək kimi böyük məs'uliyyət daşıyır, çünki ilahi Peyğəmbərlər bu məqamda

---

[1] Yenə orada, 67-ci hədis

olmuşlar.

7. Alimlərin, ilahi Peyğəmbərlər kimi Allah tərəfindən insanların canlarına və mal-dövlətlərinə vilayət haqları vardır. Buna görə də insanlar can və malını fəda etməklə onlara tabe olmalıdır.

# Onuncu fəsil: Ümmətin fəqihləri alimlər və hədisə arif olanlardır

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in və İmamların (əleyhissalam) sözlərini başa düşmək, dərk etmək və onlar barəsində mə'rifət kəsb etmək insanı yüksək məqamlara çatdırır. Rəsuli-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur:

مَن حَفِظَ مِن اُمَّتی اَربَعینَ حَدیثاً ممّا یحتَاجُونَ اَلَیهِ اَمرَ دِینِهِم بَعَثَه اللّهُ یومَ القیامةِ فقیهاً عالماً

«**Mənim ümmətimdən hər kəs (ümmətin) dini ehtiyacları olduğu şeylərdən qırx hədis əzbərləsə Allah onu qiyamət günündə bir fəqih kimi dirildəcəkdir.**»[1]

Başqa bir hədisdə isə buyurulur: وَلَم يُعَذِّبهُ «**və**

[1] «Biharul-ənvar» 2-ci cild, səh.18

**Allah ona əzab verməz.**»[1]

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-dən belə nəql olunur:

كُنتُ لَهُ شَفيعاً يَومَ القيامَه

**«Qiyamət günündə mən onlara (alimlərə) şəfaətçi olaram və qiyamət günündə onlara şəfaət edərəm.**»[2]

Buna görə də o həzrət sözlərinin və rəvayətlərinin keşiyində duran şəxslər ilə əlaqədar Allah hüzurunda şəfaətçi və vasitəçi olacaqdır.

## İbrətli nöqtələr:

1. İslami göstərişlərə əməl etməkdə hədislərin hifz olunması mədəni ehtiyaclara uyğun olmalıdır.

2. Fəqihlərin məqamı özünün yüksəkliyi ilə belə bu hafizlərə də şamil olur.

3. Başqa hədislərdə qeyd olunur ki, «**Onlar şəhidlər, Peyğəmbərlər, salehlər və doğruçularla birlikdə məşhur olacaqlar.**»

4. Alimlər həzrət Peyğəmbərin şəfaətinə şamil olacaq və onların bütün çətinlikləri o həzrətin vasitəsilə həll olunacaqdır.

5. Onlar ilahi əzabdan amandadırlar.

6. Əgər bir şəxs islam məsələləri ilə əlaqədar qırx hədis öyrənsə, sanki ilahi elmlərin sərçeşməsini

---

[1] Yenə orada, səh.18.

[2] Yenə orada, səh.154.

tapmışdır ki, ona da fəqih və alim deyilir.

7. Yüzlərlə ayə və hədis əzbərləyən, onları ilahi hökm qalibində camaata bəyan edən şəxslərin Allah hüzurunda məqamı necə də böyükdür!

# On birinci fəsil: Elmin və alimlərin əməlinin rolu

İmam Baqir (əleyhissalam)-dan belə nəql olunur:

عالِمٌ يَنتَفِعُ بِعِلمِهِ اَفضَلُ مِن عِبادَةِ سَبعينَ اَلفَ عابِدِ

«**Öz elmindən faydalanan alim yetmiş min abidin ibadətindən üstündür.**»[1]

İmam Sadiq (əleyhissalam) buyurur ki, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) buyurub:

فَضلُ العَالِمِ عَلَى العَابِدِ كَفَضلِ القَمَرِ عَلَى سائِرِ النُجُومِ لَيلَةَ البَدر

«**Alimin abidə olan üstünlüyü bədrli ay gecəsində ayın sair ulduzlara olan üstünlüyü kimidir.**»[2]

Deməli, alimin nuru abidlə müqayisədə çox fərqlidir.

---

[1] «Biharul-ənvar», 2-ci cild, səh.18.

[2] Yenə orada, 1-ci cild, səh.164

İmam Sadiq (əleyhissalam) buyurur ki, Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) belə buyurmuşdur:

فَضلُ العِلمِ اَحَبُّ اِلَی اللّه مِن فَضلِ العِبادَه

«**Elmin fəziləti Allah yanında ibadətin fəzilətindən artıqdır.**»[1]

İmam Baqir (əleyhissalam) buyurur:

يَأتِی صاحِبُ العِلم قدَّامَ العَابِدِ بِرَبوَةٍ مسيرَةٍ خَمسَمائَهِ عَامٍ

«**Elm sahibi (dünya və axirətdə, bərzəx və qiyamətdə) ibadət edəndən beş yüz illik məsafə qədər qabaqdadır.**»[2]

## İncə nöqtələr:

1. Elmin, təfəkkürün, eləcə də həqiqətlərin əldə olunmasının dəyəri bu hədislərdən aydın olur.

2. Abidlərin nuru alimlərin nurunda itib-batır.

3. İmamların və ilahi Peyğəmbərlərin sevdikləri şey elm, idrak və düşüncədir. Bunların sevimlisi olmaq üçün elm arxasınca getmək lazımdır ki, həyat şirin və hədəfli olsun, boş-boş və əbəs şeylərdən çəkinilsin.

4. Təfəkkür meydanında kamala, təkamülə çatıb hamını ötmək o qədər vacibdir ki, abidlər bu karvana çata bilmirlər. çünki bunların arasındakı fasilə çoxdur.

---

[1] «Biharul-ənvar» 2-ci cild, səh.118

[2] «Biharul-ənvar», 2-ci cild, səh.18

5. Karvanın arxasında olan şəxslər həmişə qabaqdakıların vasitəsi ilə yolu tapır və onların nurundan bəhrələnir, onları öz yollarında bələdçi hesab edirlər. Buna görə də abidlər həmişə alimlərdən bəhrələnirlər.

# On ikinci fəsil: Alimlərin imamət məqamı və onlara itaət etmək

İmam Sadiq (əleyhissalam) buyurub:

فَأَمَّا مَن كَانَ مِن الفُقَهَاءِ صائِناً لِنَفسِهِ حَافِظاً لِدِينِه مُخَالِفاً لِهَواه مُطيعاً لِاَمرِ مُولاَه فَلِلعَوامِ اَن يُقَلّدُوهُ وَ ذَلِکَ لاَ يَكُونَ إلاّ بَعضَ فُقَهاءِ الشِيعَةِ لاَ كُلَهُم

«**Fəqihlərdən hər hansı biri öz nəfsini ehtiraslardan və nəfsani istəklərdən saxlasa, dinini mühafizə etsə, həvayi-nəfsinə müxalif olsa, mövlasının əmrinə müti olsa avam camaat gərək onlara təqlid etsinlər. Bu xüsusiyyətlər də hamıda deyil, şiə fəqihlərindən bə'zilərində olur.**»[1]

Buna əsasən islam dinində özləri müctehid olmayan şəxslər fəqihlərə təqlid etməlidirlər. Əlbəttə, qeyd olunan dörd şərtə malik olan fəqihlər nəzərdə tutulur.

---

[1] «Vəsailuş-şiə», 18-ci cild, səh.95

## İncə nöqtələr:

1. Fəqih öz nəfsini bütün günahlardan və rəzil sifətlərdən qorumalı, vacibatı yerinə yetirib haram işləri tərk etməyə çalışmalıdır ki, sözləri tə’sirli olsun.

2. Din alimləri nəfsani istəklərlə müxalifət etməli, əql, iman və Allahın razılığını hər bir şeydən irəli keçirməlidirlər.

3. İslamın ruhu və təslimçilikdən ibarət olan Allaha qeydsiz-şərtsiz itaət etmək ruhiyyəsi bu ilahi şəxsiyyətlərdə hakim olmalıdır.

4. Allah dininin siyasi, iqtisadi, mədəni və e’tiqadi sahələrdə mühafizətçisi olub Peyğəmbərlərin vəzifələrini həm adi, həm də çətin şəraitlərdə qorumalıdırlar və islamın məsləhətini fikir və əməldə ilahi vacibatların ən mühümü bilməlidirlər. Peyğəmbərlərin vəzifələrinin qoruqçuları həm adi, həm də çətin şəraitlərdə siyasi, iqtisadi, mədəni və e’tiqadi sahələrdə Allah dinini qorumalı və islamın məsləhətini fikir və əməldə ilahi vacibatların ən mühümü bilməlidirlər.

5. Təqribən bir səhifədən uzun olan bu rəvayət təqlid edilməyə səlahiyyəti olan və olmayan şəxsləri bəyan edir. Camaatın günahkar, cahil, fasiq öz həvayi-nəfsinə tabe olan bir şəxsə təqlid etməyə haqqı yoxdur, əgər təqlid edərlərsə Allah-taalanın Qur’anda məzəmmət etdiyi bu şəxslər olacaqlar:

فَوَيْلٌ لِّلَّذِينَ يَكْتُبُونَ الْكِتَابَ بِأَيْدِيهِمْ ثُمَّ يَقُولُونَ هَذَا مِنْ عِندِ اللّهِ لِيَشْتَرُواْ بِهِ ثَمَناً قَلِيلاً فَوَيْلٌ لَّهُم مِّمَّا كَتَبَتْ أَيْدِيهِمْ وَوَيْلٌ لَّهُمْ مِّمَّا يَكْسِبُونَ

«**Vay olsun o kəslərə ki, öz əlləri ilə kitab yazıb sonra «bu Allah tərəfindəndir» – deyirlər ki, onun vasitəsilə bir qədər gəlir əldə etsinlər. Vay olsun onlara əllərinin yazdıqlarından və vay olsun onlara qazandıqlarından.**»[1]

6. İlahi hökmləri təhrif edənlər Allaha böhtan və yalan nisbəti verir, buna görə də bərzəx aləmində və cəhənnəmdə ilahi əzaba düçar olacaqlar.

7. Mə’sum İmamın (əleyhissalam) qeybdə olduğu böyük qeybət dövründə müctəhid olmayan müsəlman bir şəxsin vəzifəsi camiuş-şərait fəqihlərə təqlid etməkdir. Eləcə də ictimai həyatın hər bir yönündə təqlid etmək hamının qəbul etdiyi bir məsələdir. Məsələn, tibb sahəsində həkimin dediklərinə, texnikada mühəndislərin və texniklərin dediklərinə təqlid edirlər. Din barəsində də müctəhid olmayan şəxs dində mütəxəssis olanlara müraciət etməlidir.

8. İslam dininə əməl etmək yolları – ictihad, təqlid və ehtiyata əməl etməkdir.

9. Bu fəqihlərin tanınması din məsələlərində

---

[1] «Bəqərə» surəsi, ayə:79

təqlid etmək istəyən bütün şəxslərin vəzifəsidir.

## On üçüncü fəsil: Mə’sum imam (ə) tərəfindən tə’yin olunan fəqih və alimlər

İmam Sadiq (əleyhissalam) Ömər ibni Hənzələyə buyurdu:

مَن كَانَ مِنكُم مِمَّن قَدرَوَى حَدِيثَنَا وَنَظَرَ فِى حَلاَلِنَا وَ حَرَامِنَا وَ عَرَفَ أحكَامَنَا فَليَرضَوا بِه حَكَماً فَإنِّى قَد جَعَلتُهُ عَلَيكُم حَاكِماً فَإذَا حَكَمَ بِحُكمِنَا فَلَم يُقبَل مِنه فَإنَّما استَخَفَّ بِحُكمِ اللّه وَ عَلَينَا رَدٌّ وَ الرّادُّ عَلَينَا الرّادُ عَلى اللّه و هُوَ عَلى حَدِّ الشِّركِ بِاللّهِ

«**Sizin (mö’minlərin) aranızda bizim sözlərimizi (və kəlamlarımızı) bəyan edən, bizim halal və haram buyurduqlarımızda dərindən fikirləşən və bizim hökmlərimizi tanıyan şəxs camaat tərəfindən bütün işlərdə hakim kimi qəbul edilməlidir. Həqiqətən mən onu sizə hakim qərar verirəm. O, bizim hökmümüzlə hökm etdiyi vaxt ondan qəbul olunmazsa, Allahın hökmünü kiçik sayaraq bizimlə müxalifət etmiş olurlar, bizimlə müxalifət isə Allahın hökmünü rədd etməkdir və bu da Allaha şərik qoşmaq həddindədir.**»[1]

---

[1] «Vəsailuş-şiə 18-ci cild, səh.99.

**İncə nöqtələr:**

1. Allahın haram və halal buyurduqlarında, Mə'sumların (əleyhissalam) hədislərində ictihad mərhəlisinə çatan mütəxəssislər Mə'sum İmam (əleyhissalam) tərəfindən tə'yin edilmişlər.

2. Bu fəqihlərin hökmləri icra olunmalıdır və ona e'tinasız yanaşmaq olmaz.

3. Fəqihlərin tərəfindən verilən hökmlərin rədd edilməsi insanı tovhiddən şirkə sürükləyir.

4. Mərcəyi təqlidlərin fətvasına ehtiram qoymaq ilahi hökmlərə ehtiram qoymaqdır.

5. Onlar fətva vermək məqamında Mə'sum İmam (əleyhissalam) tərəfindən tə'yin edilmişlər.

## On dördüncü fəsil: Cəhalət əsasında olan fətvanın aqibəti

İmam Baqir (əleyhissalam) buyurur:

مَن أفتَى النَّاسَ بِغَيرِ عِلمٍ وَ لاَ هُدىً مِن اللّه لَعَنَتهُ مَلائِكةُ الرّحمةِ وَ مَلائِكُةُ العَذَابِ وَ لَحِقَهُ وِزرُ مَن عَمِلَ بِفَتواه

«**Hər kəs Allah tərəfindən verilən hidayət və elm olmadan camaata fətva versə rəhmət mələkləri və əzab mələkləri onu lə'nətləyər, onun fətvasına əməl edənlərin günahları ona yazılar.**»[1]

---

[1] «Biharul-ənvar» 23-cü cild, səh.118

**İncə nöqtələr:**

1. İlahi alimlər tərəfindən fətva verməyin özü aydın, icazəli bir iş və hətta vəzifədir.

2. Fəqihlərin fətvaları insanların dünya və axirətdə izzətə çatmalarında çox mühüm və həssas rol oynayır.

3. Söz və fətva o zaman insana izzət gətirər ki, agahlıq, elm və hidayət üzərindən olsun, həmçinin insanı kamallara doğru sövq eləsin.

4. Cəhalət əsasında olan fətva insanı ilahi rəhmətdən uzaqlaşdıraraq onu Allahın əzabına düçar edər.

5. Cəhalət üzündən olan sözlərin və yazıların günahı, eləcə də e'tiqad və düşüncələrin təhrif olunmasının ağır yükü o kəslərin öhdəsinədir ki, heç bir qayda-qanun olmadan kitab və sünnətdən xaricdə fətva vermiş olsunlar.

## On beşinci fəsil: İlahi alimlərin ali məqamları

Əbi Dərda deyir: Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) belə buyurdu:

إنَّ اللّه عَزَّ وَ جَلّ يَجمَعُ العُلَماءَ يَومَ القِيامَةِ وَ يَقُولُ لَهُم: لَم أضَع نُورِى وَحِكمَتِى فِى صُدُورِكُم الاَّ وَ أنَا اُرِيدُ بِكُم خَيرَ الدُّنيَا وَ الاَ خِرَةِ إذهَبُوا فَقَد غَفَرتُ لَكُم عَلَى مَا كَانَ مِنكُم

**«Həqiqətən Allah-taala qiyamət günü alimləri bir yerə toplayıb onlara deyəcək: Öz nur və hikmətimi ona görə sizin qəlbinizdə qoydum ki, sizə dünya və axirət xeyrini iradə etmişdim, gedin, həqiqətən sizin əməllərinizi bağışladım!»**[1]

### İncə nöqtələr:

1. İlahi hikmət və nur mərtəbələri Peyğəmbərlərin və İmamların halına şamil olduğu kimi rəbbani alimlərə də şamil olur. Onların vücudları ilahi nurla işıqlanmışdır, ilahi cilvələrin mərtəbələrinin xarici nümunələridir.

2. Alimlər Allah tərəfindən dünya və axirət xeyirlərinə nail olurlar.

3. Allahın geniş məğfirət və əfvi ilahi alimlərin halına şamil olur.

## On altıncı fəsil: Həqiqi həyat elm və mə'rifətin sayəsindədir

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur:

العَالِمُ بَينَ الجُهّال كَالّحيِ بَينَ الاَمَوات

**«Cahillərin arasında alimin misalı ölülərin arasında olan diri şəxsə bənzəyir.»**[2]

---

[1] «Biharul-ənvar» 3-cü cild, səh.16

[2] «Vəsailuş-şiə», 27-ci cild, səh.28

Həzrət Əmirəl-mö’minin Əliyyibni Əbitalib (əleyhissalam) buyurur:

اَلعَالِمُ حَیٌ و إن کَانَ مَیِّتاً وَ الجَاهِلُ مَیِّتٌ وَ إن کَانَ حیًّا

«**Alim diridir ölmüşsə belə və cahil ölüdür diriykən belə.**»[1]

مَات خُزَّانُ المَالِ وَ هُم أحیَاءٌ وَ العُلَمَاءُ بَاقُونَ مَا بَقِیَ الدَّهر

أعیَانُهُم مَفقُودَةٌ وَ أمثَالُهُم فِی القُلوبِ مَوجُودَة

«**Mal-dövlət toplayanlar diri olsalar belə, ölmüşlər, lakin alimlər dünya qaldıqca qalarlar, onların bədənləri (torpaqlar altında) itmişdir, lakin onların oxşarları (məsəlləri) insanların qəlblərində əbədi qalır.**»[2]

## İncə nöqtələr:

1. Qiyamətə qədər alimlərin vücudları əbədidir və o dünyada da xüsusi bir məqama malikdirlər.

2. Həqiqi həyat o kəslərə məxsusdur ki, ilahi elm və həqiqətlər arxasınca olsunlar. Buna görə də ilahi alimlər həqiqi və real həyata malik olub Onun nurundan və elmi nurundan bəhrələnirlər.

3. Fani və zahiri həyat cahillərə, mal-dövlət toplayanlara və imansız sərmayədarlara məxsusdur. Əlbəttə, mümkündür ki, bə’zi-bə’zi alim və agah şəxslər də qanuni sərmayəyə malik olsunlar və onu

---

[1] «Ğürərül-hikəm», səh.216

[2] «Biharul-ənvar», 78-ci cild, səh.76

islam və müsəlmanlara xidmət etmək üçün işlətsinlər.

4. İlahi alimlər insanların qəlbində özünə yer açır və bütün qəlbləri özlərinə məftun edirlər.

5. İlahi alimlər həmişə diridirlər, çünki ilahi sifətlərdən olan dirilik, əbədilik və alim olmaq kimi sifətlərlə səciyyələnmişlər. Mütəal Allah da qeyb və şühud aləminə alimdir. («Mö'minun» surəs, 92-ci ayə)

8. Cahil ölü bir insan kimi özünü müdafiə edə bilmir, deməli tarix boyu alimlər insan hüquqlarını müdafiə etmişdir.

9. Cahil ölü bir şey kimi şüur və mə'rifətdən bəhrələnmir, özlərinin elm və düşüncəsi ilə həyatı insanlara təqdim edənlər də məhz alimlərdir.

10. Cahillər ölülər kimi hissiyyatını itirmişlər və cəmiyyətin dərdini hiss etmirlər, alimlər isə insanlara şəfa bəxş eləyən, onları müalicə etməyə qüdrəti olan dərdli insanlardır və tarix boyu belə olmuşdur.

11. Müdərrislər, Şeyx Fəzlullah Nurilər, Ayətullah Kaşanilər, Xomeynilər, Nəvvablar kimi alimlər tarix boyu insanların ölümcül vəziyyətə düşmüş bədənlərinə həyat vermiş və islamı, cəmiyyəti diri saxlamışlar.

# On yeddinci fəsil: Alimlərin

## üstünlüyü

Rəsuli-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur:

أنَّ فَضلَ العالِمِ عَلَى العَابِدِ كَفَضلِ الشَّمسِ عَلى الكَواكِب

«**Alimin abidə olan fəzilət və üstünlüyü günəşin sair ulduzlara olan üstünlüyü kimidir.**»[1]

فَضْلُ العالِمِ عَلَى العَابِدِ كَفَضلِ القَمَرِ عَلَى سَائِرِ النُجُومِ لَيلَةَ البَدرِ

«**Alimin abidə olan üstünlüyü on dörd gecəlik ay gecəsində ayın sair ulduzlara olan fəzilət və üstünlüyü kimidir.**»[2]

### İncə nöqtələr:

1. Ay və Günəş öz işığında, böyüklüyündə və varlıq aləminə qoyduğu tə'sirlərində çoxlu fərqlərə malik olduğu və başqa ulduzlara nisbətən fərqləndiyi kimi alimlər də insanların vücuduna tə'sir qoymaq baxımından xüsusi məqama malikdirlər.

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur:

فَضلُ العَالِمِ عَلى الشَّهيدِ دَرَجَةٌ وَ فَضلُ الشَّهيدِ عَلَى العَابِدِ

---

[1] «Biharul-ənvar», 2-ci cild, səh.19

[2] «Biharul-ənvar», 2-ci cild, səh.18

درجةٌ وَ فَضلُ العاَلِمِ عَلَی سَائِرِ النَّاسِ کَفَضلِی عَلَی أدنَاهُم

«**Alimin şəhiddən bir dərəcə üstünlüyü vardır, şəhidin də abiddən bir dərəcə üstünlüyü vardır. Alimin bütün insanlara olan fəziləti mənim (yə'ni Peyğəmbərin) başqalarına olan üstünlüyüm kimidir.**»[1]

**İbrətli nöqtələr:**

1. Alimlər şəhidlərdən üstündür, çünki onların elm və hidayətləri cəmiyyətdə şəhidlər tərbiyə edir.

2. Camaatın ən yüksək fərdi ilə ən aşağı fərdi arasında, yə'ni həzrət Peyğəmbər ilə adi camaat arasında çoxlu ilahi və mə'nəvi fərqlər vardır.

## On səkkizinci fəsil: Qiyamətdə alimlərin məqamı

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur:

ثَلاثَةٌ یَشفَعُونَ اِلَی اللّه یومَ القِیامَةِ فَیُشَفِّعَهُمُ الانبیاءُ ثُمَ العُلَماءُ ثُمَ الشُهَداء

«**Qiyamət günü üç dəstə insanlar Allah dərgahında şəfaət edər, Allah da onların şəfaətini qəbul edər: Peyğəmbərlər, sonra alimlər, sonra**

[1] «Məcməül bəyan», 9-cu cild, səh.253.

**şəhidlər.**»[1]

**İncə nöqtələr:**

1. Allah dərgahında ilahi alimlərin məqamları Peyğəmbərlər və şəhidlərin məqamları kimidir ki, insanlara Allah dərgahında şəfaət edərək onları cəhənnəm əzabından xilas edib günahlarını bağışlatmaqla Allahın izni ilə onları behiştə apara bilərlər.

2. Şəfaət məqamında alimlər şəhidlərdən irəlidir.

3. İlahi alimlərin rütbəsi Peyğəmbərlərdən sonradır.

4. Allah dərgahında ilahi alimlərin şəfaəti qəbul olunur.

# On doqquzuncu fəsil: Alimlər mə’sum imamın (ə) insanlara olan höccətidir

Həzrəti Sahibəzzəman (əccələllahu təala fərəcəhuş-şərif)-in öz əli yazması olan məktubda belə buyurulur:

أمَّا مَا سَألتَ عَنهُ أرشَدَکَ اللّه وَ ثَبَّتَکَ ألی أن قاَلَ: وَ أمَّا الحَوَدِثُ الوَاقِعَةُ فَارجِعُوا فيِهَا اِلَی رُوَاةِ حَدِيثِنَا فَإنَّهُم حُجَّتِی عَلَيكَم

---

[1] «Biharul-ənvar», 2-ci cild səh.15

وَ أَنَا حُجَّةُ اللّه

«**Sənin soruşduğun məsələlərə gəldikdə isə, Allah səni düz yola hidayət edib sabitqədəm etsin. (Sonra bu məsələyə gəlib çataraq buyurur:) Baş verən hadisələrə gəldikdə isə (belə ki, onların barəsində dini mə'lumatınız olmasa və vəzifənizin nə olduğunu bilməsəniz) bizim sözlərimizi rəvayət edənlərə (və onu açıqlayanlara) müraciət edin. Həqiqətən onlar mənim sizə olan höccətimdir, mən də Allahın höccətiyəm.**»[1]

## İncə nöqtələr:

1. Müctehid üçün bütün şərtlərə malik olan, ilahiyyat elmlərində nəzər sahibi olan fəqihlər və alimlərin böyük qeybət dövründə əmr və fətvaları mə'sum İmam (əleyhissalam) tərəfindən təsdiq edilmiş şər'i bir dəlil və höccət sayılır. Buna görə də bu vəzifədən qafil olmaq olmaz. Onların əmrlərinə itaət etmək vacibdir.

2. Dövrün müxtəlif məsələlərində, siyasi və e'tiqadi ixtilaflarda ilahi alimlərə müraciət etmək bizim vəzifəmizdir.

3. On dörd məsumun (əleyhissalam) hədislərini rəvayət edənlərinin məqamı həqiqətdə Allahın höccəti tərəfindən verilən bir məqamdır.

---

[1] «Vəsailuş-şiə», 18-ci cild, səh.101

# İyirminci fəsil: Peyğəmbərlərin əmanətin daşıyanlar.

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur:

اَلفُقَهاءُ اُمَناءُ الرُّسُلُ مَا لَم يَدخُلُوا فِى الدُنيَا قيل: يَا رسول اللّه (ص) : مَا دُخُولُهم فِى الدُّنيَا؟ قَالَ: إتِّبَاعُ السُّلطَانِ فَإذَا فَعَلُوا ذَلِک فَاحذَرُوهُم عَلى أديَانِكُم

«**Fəqihlər, dünya malına baş qoşmayınca Peyğəmbərlərin əmanətdarlarıdır.**» **soruşdular: Ya Rəsuləllah, onların dünya malına baş qoşmaları necə olur?**» **Buyurdu:** «**Sultana (padşaha) tabe olmalarıdır. Bu işi etdikləri zaman dininiz barəsində onlardan uzaq olun.**»[1]

## İncə nöqtələr:

1. Fəqih o kəsdir ki, islamı, dini, Qur'anı və rəvayətləri dərindən başa düşüb və ilahi hökmlərin çıxarılmasında, onları sünnətdən və kitabdan bəyan edən ictihad qüdrətinə malik olsun.

2. Fəqih pis və rəzil işlərdən uzaqlaşaraq insani səcəyyələrə malik olmalıdır, həvapərəstlik, şöhrətpərəstlik, məqampərəstlik, pulpərəstik və sair kimi alçaq xüsusiyyətlərə düçar olmamalıdır.

3. Allahın və ilahi Peyğəmbərlərin e'timad

---

[1] «Biharul-ənvar», 2-ci cild, səh.36

etdiyi şəxs ən yaxşı məqam və mənsəbə malikdir.

4. Məzəmmət olunmuş dünyaya meyl etmək insani kamallardan tənəzzülə uğramaqla bərabərdir.

5. Zalım hakimlər və padşahlara, onların saray alimlərinə tabe olmaq insanı həqiqi islamdan və dindarlıqdan çıxarır.

# İyirmi birinci fəsil: Alimlərin ilahi xilafət məqamı

Əmirəl-mö'minin Əliyybni Əbi talib (əleyhissalam) Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in belə buyurduğunu nəql edir:

اَللهُمَّ إرحَم خُلَفَائِی ثَلاَثاً قیل یا رسول اللّه وَ مَن خُلَفائُک قالَ الذِینَ یَأتُونُ بَعدِی وَ یَرُوون حَدِیثِی وَ سُنَتِی

«**Pərvərdigara, mənim xəlifələrimə rəhm et!**» **Peyğəmbər bu sözü üç dəfə təkrar etdi. Deyildi ki, ya Rəsuləllah, sənin xəlifələrin kimdir? Buyurdu: «O kəslərdir ki, məndən sonra gəlib hədis və sünnətimi nəql edərlər.»**[1]

## İncə nöqtələr:

1. Bu kəlamın nümunələri Peyğəmbərin (səlləllahu əleyhi və alihi və səlləm) dövründə mə'sum İmamlardır. Amma İmamların hüzuru

---

[1] «Vəsailuş-şiə», 18-ci cild, səh.100

dövründə və kiçik və böyük qeybət dövründə kimin olmasına gəldikdə isə, bu sualın cavabı tamamilə aydındır, mə'sum İmamların elmi məqamları bu həqiqəti bəyan edir. Salmanlar, Əbuzərlər, Bilallar, Miqdadlar Malik Əştərlər, İmam Hüseyn (əleyhissalam)-ın səhəbələri və Əhli-beyt (əleyhimussalam) məktəbinin şagirdləri, o cümlədən, Hişam ibni Həkəm və yüzlərlə başqa şagird, İmam Zaman (əleyhissalam)-ın xüsusi naibləri və dini alimlər o həzrətin böyük qeybət dövründəki ümumi naibləridir.

2. Nümunələri camiuş-şərait fəqihlər olan alimlər və ilahi hökmləri bəyan edənlər, hədis barəsində mə'rifətli olanlar böyük qeybət dövründə həzrət İmam Zaman (əleyhissalam)-ın ümumi naibləridir.

3. Rəsuli Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) bu fəqih və alimlər üçün dəfələrlə dua etmişdir. Biz də onlar üçün dua etməliyik ki, özlərinin ağır vəzifələrini yerinə yetirməyə müvəffəq olsunlar.

## İyirmi ikinci fəsil: Alimlər e'tiqad və təfəkkür sərhədlərinin keşişçiləridir

İmam Sadiq (əleyhissalam) buyurur:

عُلَماءُ شِيعَتِنَا مَرَابِطُونَ بِالثغرِ الذِی يَلَی إبلِيسِ وَعَفَاريته يَمنَعُونَهُم عَنِ الخُرُوجِ عَلَی ضُعَفَاءِ شِيعَتُنَا وَ عَن إن يَتَسَلَّط عَلَيهِم إبلِيسِ وَشِيعَتُهُ النَّواصِب ألا فَمَن انتَصَب لِذلک مِن شِيعَتِنا كَانَ أفضَلُ مِمَّن جَاهَدَ الرومَ وَ التُركَ وَ الخَزَر ألفَ ألفَ مَرَّةٍ لاَنَّهُ يَدفَعُ عن أديَانِ مُحِبينا و ذلِکَ يَدفَعُ عَن أبدانِهِم

**«Bizim şiələrin alimləri elə sərhəd qoruqçularıdır ki, şeytan və onun dəstəsi (onun fərmanı altında) o sərhədlərin kənarında bizim şiələrə hücum etmək üçün oturmuşlar. Şiələrin alimləri şeytanların müstəz'əf şiələrimizə həmlə etməsinə mane olurlar (e'tiqadi və ideoloji cəhətdən məzlumiyyətdə qalan insanlar düşmən tərəfindən daha tez aldadıla bilər) və şiə alimləri iblisin və onun nasibi ardıcıllarının bizim şiələrə hakim kəsilməsinin qarşısını alır. Agah olun, bu iş üçün tə'yin olunan şiələr romalılarla, türklərlə, xəzərlərlə cihad edənlərdən min-min dəfə üstündürlər, çünki o şiə alimi bizim dostlarımızın dinlərini müdafiə edir, cihad edənlər isə bizim dostlarımızın cisimlərini müdafiə edirlər.»**[1]

## İncə nöqtələr:

1. Şiələr arasında ideoloji və e'tiqadi nəzərdən müstəz'əflikdə olan şəxslərin varlığı alimlərin

[1] «Biharul-ənvar», 2-ci cild, səh.5

vəzifəsini daha həssas və ağır edir.

2. Mə'sum İmamlar (əleyhissalam) ilahi alimləri və mütəfəkkirləri e'tiqadi və mədəni sərhədlərin həddini-hüdudunu qorumaq üçün tə'yin etmişlər.

3. Şeytanlar şiələrə nüfuz edib onlara hökümkəsilmək üçün daim proqramlar hazırlayırlar.

4. Bu hədd-hüdudun qorunması torpaqların və sərhədlərin qorunmasından qat-qat mühümdür, çünki əgər əqidə möhkəm olarsa ölkənin əraziləri qorunacaqdır, lakin Allaha iman və e'tiqad zəif olarsa ölkə süqut edəcək, onun həm torpaq, həm də e'tiqadi sərhədləri Allahdan xəbərsiz olan düşmənlərin hücumlarına mə'ruz qalacaqdır.

5. Din düşmənləri istər daxili olsun, istərsə də xarici, öz yolları üzərində yeganə maneənin şiə alimləri olduğunu görür. Tarix də bu məsələni sübuta yetirmişdir.

# İyirmi üçüncü fəsil: Alimlərin qələminin şəhidin qanından üstün olması

Rəsuli-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur:

إذا كَانَ يَوم القِيَامَةِ وُزِّنَ مِدَادُ العُلَمَاءِ بدَماءِ الشُهَدَاءِ فَيُرَجَّح مِدَادُ العُلَمَاءِ على دَمَاءِ الشُّهَدَاءِ

«**Qiyamət günü olanda alimlərin qələmi şəhidlərin qanı ilə müqayisə olunar və alimlərin qələmi şəhidlərin qanından üstün olar.**»[1]

## İncə nöqtələr:

1. İslamı, e’tiqadiyyatı və islami-dini təfəkkürləri müdafiə edən, insanları hidayət edən qələmin dəyəri Allah yolunda şəhid olan bir şəxsin qanından daha fəzilətli və üstündür. Çünki Allah yolunun şəhidləri ilahi alimlərin və ariflərin tərəfindən hidayət olunur.

2. Qiyamət günü Allah tərəfindən edilən bu müqayisə ilahi ədalət və hikmət üzərindən baş verir.

3. Alimin qələmi Allah yolunda şəhid, mücahid, mühacir və mö’min insanlar yetişdirir. Rəvayətlərə əsasən əgər ilahi alimlərin hidayəti olmasaydı insanlar dindən çıxardılar.

4. Alimlərin qələmi şəhdlərin qanının peyğamını çatdırır, onların şücaət və rəşadətlərinin bəhrəsini canlandırır və onların adlarını xatirələrdə əbədi saxlayır.

5. Mədəni bir işin fiziki iş olan cihada (kiçik cihada) olan üstünlüyü və dəyəri çox aydındır. Birincisi bütün işlərdən və günəşin saçdığı hər bir şeydən dəyərlidir. İnsanları pis işlərdən çəkindirib yaxşı işlərə, Allahın əmrlərinə doğru hidayət etmək

---

[1] «Biharul-ənvar», 2-ci cild, səh.16

və mədəni dirçəliş yaratmaq savab baxımından din düşmənləri müqabilində cihadla müqayisədə bir dəryaya bənzər.

## İyirmi dördüncü fəsil: Alimlər yer üzünün çıraqlarıdır

Rəsuli Əkrəm buyurur:

أَلعُلَمَاءُ مَصَابِيحُ الارض وَ خُلَفَاءُ الاَنبِياء وَ وَرَثَتِى وَ وَرَثَةُ الاَنبياء

«**Alimlər yer üzünün çıraqları, Peyğəmbərlərin canişinləri, mənim və bütün Peyğəmbərlərin vərəsələridir.**»[1]

### İncə nöqtələr:

1. İnsan işıqdan istifadə etmədən öz məişətini və həyatını idarə edə bilməz.

2. Varlıq aləmi gecələr işığa, yə’ni ayın saçmasına, gündüzlər isə günəşin işığına ehtiyaclı olduğu kimi, insan da mə’nəviyyatda və dində mə’nəvi bir çırağa ehtiyac duyur, çünki alimlərin bu nuru tohid, nübüvvət, Qur’an və imamətdən ibarətdir ki, camaat onlardan nur kəsb edərək nurani olmalıdır.

3. İlahi alimlər insanların hər növ qaranlıqlarda, o

---

[1] «Kənzül-ümmal», 28677-ci hidis

cümlədən böyük qeybət dövründəki e’tiqadi və ideoloji cəhətdən qaranlıqlardan çıxarırlar və bunlar İmamın ümumi naibləridir.

# İyirmi beşinci fəsil: Bütün varlıq aləmi ilahi müəllimlər üçün istiğfar edir

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur:

مُعَلِّمُ الخَيرِ يَستَغفِرُ لَهُ دَوَابُّ الارضِ و حيِتَان البَحر و كلُ ذِى رُوحٍ فِى الهَواء و جميعُ اهلِ السَّماءِ وَ الاَرضِ

«**Xeyir öyrədən şəxsə yerin canlıları və havada olan bütün ruhlular, eləcə də bütün yer və səma əhli istiğfar edir.**»[1]

## İncə nöqtələr:

1. Əgər bir alim elm ardınca gedərsə bütün varlıq aləmi onun tövbə və istiğfarının çatışmayanlarını cübran edər.
2. Bütün varlıq aləmi, istər ərşdə olanlar, istərsə də yerdə olanlar, bütün canlı varlıqlar Allah dərgahında alimi müdafiə edirlər.
3. İlahi alimdən baş verən günahlar çətin bağışlansa belə bu rəvayətlər ümidvar edəndir.

---

[1] «Biharul-ənvar», 2-ci cild, səh.17

4. Nə üçün insanlar, xüsusilə cavanlar bu qədər ali məqamlara çatan alimlərdən uzaq düşməli və onlarla oturub-durmamalı, bəhrələnməməlidir? Belə hallarda da baş verən zərərlər müalicə edən həkimə deyil, xəstənin özünə çatır.

5. Qiyamət günündə alimlər şikayət edib deyəcəklər ki, nə üçün camaat bizim elmimizdən bəhrələnməyib bizi yalqız qoydular?

6. Bütün varlıq aləmi – istər mələklər, istərsə də heyvanlar alimlərin məqam və mənzilətini tanıyırlar. Amma çox təəssüflə insanlardan çoxu bu işdən agah deyillər. Qur'an buyurur: «Camaatın əksəriyyəti elm, düşüncə və şüur sahibi deyillər, onlar mə'rifət vasitələrindən istifadə etməyir və bu mühüm məsələyə diqqət yetirmirlər.»

## İyirmi altıncı fəsil: Alimlərin yolunun sonu

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur:

مَن سَلَکَ طَرِیقاً یَطلَب فیهِ عِلماً سَلَکَ اللّه بِهِ طریقاً إلی الجَنَّةِ

«**Hər kəs elm öyrənmək üçün bir yol getsə Allah onu cənnətə aparar.**»[1]

**İncə nöqtələr:**

[1] «Üsuli-kafi», 1-ci cild, səh.42

1. İlahi elmlərin yolu behiştə və Allah dərgahına yaxınlaşmağa doğrudur.

2. İslam mədəniyyətində elm və biliyin dəyəri behişt və Allaha yaxınlıq qədər yüksəkdir.

3. Elm öyrənmək yolunda qarşıya çıxan çətinliklərlə mübarizə aparmaq yüksək ilahi məqamlara nail olmağa səbəb olur.

# İyirmi yeddinci fəsil: Mələklər öz qanadlarını elm öyrənənlərinin ayağı altına salır

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur:

إنّ المَلائِكَةَ لَتَضَعُ أجنِحَتَهَا لِطَالِبِ العلمِ

«**Həqiqətən mələklər öz qanadlarını elm öyrənən şəxsin (ayağı) altına salar.**»[1]

**İncə nöqtələr:**

1. İlahi alimlərin məqam və mənzilətləri elə yüksəkdir ki, mələklər ən əziz üzvlərini (qanadlarını) onların ayaqları altına salır.

2. Mələklər bu cür alimlərlə ünsiyyətdə olmaqları ilə iftixar edirlər.

3. Bununla da alimlərin mələklərdən üstün

---

[1] «Biharul-ənvar», 1-ci cild, səh.177.

olması aydın olur.

4. Mələklər alimlərin qarşısında bu cür rəftar edirlərsə onda bizim onların qarşısındakı vəzifəmiz tam aydındır.

# İyirmi səkkizinci fəsil: Alimlərin hüzurunda təvazökarlıq

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (əleyhissalam) buyurur:

إِذَا رَأَيتَ عَالِماً فَكُن لَهُ خَادِماً

«**Alimi gördüyün zaman ona xidmətçi ol!**»[1]

Yenə buyurur:

مَن وَقَّرَ عَالِماً فَقَد وَقَّرَ رَبَّه

«**Hər kəs bir alimə tə'zim etsə Allaha tə'zim etmiş olur.**»[2]

## İncə nöqtələr:

1. Mövlayi-müttəqiyan həzrət Əliyyibni Əbitalib (əleyhissalam) əmr edir ki, alimlərə xidmətçi olaq.

2. Amma çox təəssüflə, bə'zilərinin qürur və təkəbbürü o qədər çox olur ki, hətta alimlərin onlara xidmətçi olmalarını təvəqqe edirlər.

---

[1] «Ğurərul-hikəm», səh.217

[2] «Ğurərul-hikəm», səh.218

3. İlahi alimlərin qarşısında təvazökarlıq Allah qraşısında təvazökarlıq sayılır.

4. Bə'ziləri təhqirlə yanaşıb deyirlər ki, bunlar rəbbani alim deyillər. Onlara demək lazımdır ki, nə üçün alim olmamasına ehtimal verirsən, halbuki onun qarşı tərəfi də ehtimal olunur. İnsan həmişə hüsnü-zənn etməlidir ki, azğınlığa və həlakətə doğru sürüklənməsin.

5. İlahi alimlər bütün varlıq aləmində diqqət mərkəzindədirlər, çünki varlıq aləmini icad edən Allah onlara xüsusi diqqət yetirir.

# İyirmi doqquzuncu fəsil: Alimlərin məqam və mənziləti.

Peyğəmbər-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur:

مَنِ استَقبَلَ العُلَماءَ فَقَد استَقبَلَنِی وَ مَن زَارَ العُلماءَ فَقَد زَارَنِی وَمَن جَالَسَ العُلَماءَ فَقَد جَالَسَنِی فَكَأنَّمَا جَالَسَ رَبِی

«**Hər kəs alimlərə üz gətirsə mənə üz gətirmişdir, hər kəs alimləri ziyarət etsə məni ziyarət etmişdir, hər kəs alimlərlə oturub-dursa mənimlə oturub durmuşdur və sanki öz Rəbbi ilə ünsiyyətdə olmuşdur.**»[1]

---

[1] «Kənzül-ümmal», 28883-cü hədis

## İncə nöqtələr:

1. Alimlər mütəal Allahın cilvəgahıdır.

2. İlahi alimlərə üz gətirmək Peyğəmbərə üz gətirmək sayılır.

3. Alimləri ziyarət etmək Peyğəmbəri ziyarət etməkdir, onlarla oturub-durmaq Peyğəmbərlə oturub-durmaqdır.

4. Peyğəmbərlə bir dövrdə olub onunla oturub-durmadığından təəssüflənən insanlar nə üçün ilahi alimlərlə oturub-durmur və onunla həm söhbət olmur?!

5. Allahla görüş istəyən şəxslər Onun cilvəsi sayılan ilahi alimlərlə görüşməlidir.

6. Nə üçün bu ali görüşə diqqət yetirilmir? Nə üçün şəxslər sağlam əql və qəlbləri ilə bu kimi məsələlərə baş qoşmur və bu kimi mə’nəviyyatı əldə etmirlər? Bunlar xəsarətə uğrayan və yüksək insani məqamlardan məhrum olan şəxslərdir. Xoş olsun o şəxslərin halına ki, alimləri ziyarət etmiş olsunlar.

İmam Hadi (əleyhissalam) buyurur:

لَو لا مَن يَبقَى بَعد غَيبَةِ قَائِمِنَا (ع) مِن العُلَماءِ الدَّاعِينَ إليه والدّالِّين عَلَيه و الذَّابِين عَن دِينهِ بحجج اللّه و المُنقِذِينَ لِضُعَفاءِ عِبَادِ اللّه مِن شِباکِ إبلِيس وَ مَردَتِه و مِن فِخَاخِ النَّوَاصِبِ لَمَا بَقِیَ احدٌ إلاّ إرتَّدَ عَن دينِ اللّه وَلَكِنَّهُم الذينَ يُمَسِكُونَ أزِمّة قُلوبِ ضُعَفاءِ الشيعة كَمَا يُمَسِکُ صَاحِبُ السَفِينَةِ سُكّانَهَا اُولَئِکَ هُمُ

الا فَضَلُونَ عِندَ اللّه عَزّ و جَل

**«Əgər bizim Qaimimizin (İmam Zaman (əleyhissalam), zühuruna qədər insanları dinə Allaha doğru də'vət edən, dəlil-bürhan əsasında islamın sərhədlərini müdafiə edən bir alim olmasa, Allahın zəif bəndələrini inadkar şeytanların tələsindən xilas edən, onları şiəliyə zidd olan nasibi tələlərindən xilas edən alimlərdən bir şəxs qalmasa camaatın hamısı Allah dinindən çıxaraq kafir olar (və Peyğəmbərin və Əhli-beytin yolundan əsər-əlamət qalmaz), lakin alimlər o kəslərdir ki, gəmiçi gəmidəki sərnişinləri saxladığı kimi onlar da şiə zəiflərinin qəlblərini möhkəm saxlayırlar. Bunlar Allah dərgahında ən fəzilətli insanlardır.»**[1]

## İncə nöqtələr:

1. Bu rəvayətdə insanların düz yola hidayət olunmasında alimlərin böyük məqamları, vəzifələri bəyan olunmuşdur.

2. İmam (əleyhissalam)-ın qeybdə olduğu dövrdə alimlərin məqam və mənsəbləri bəyan olunmuşdur.

3. Böyük qeybət dövründə ilahi alimlər dinin və həqiqi islamın himayəçiləri kimi təqdim olunur və bu barədə heç bir müəmmaya yer qalmır.

---

[1] «Biharul-ənvar», 2-ci cild, səh.6

4. Alimlər insanları haqqa də’vət edən, onlara düz yol göstərən, insanları cin və insdən olan şeytanların tələlərindən xilas edənlərdir.

5. Əgər ilahi alimlər olmasaydı böyük qeybət dövründə heç kəs islam dinində qalmazdı.

6. Bu hədis rəbbani və hidayətedici alimlərin bərəkətinə, onların xaliscəsinə etdiyi əməl və elmi zəhmətlər nəticəsində islamın qalmasını göstərir.

7. Bu rəvayət şiələrin arasında bə’zi mədəni müstəz’əfliyin mövcud olduğunu göstərir.

8. İmam (əleyhissalam) e’tiqadi və ideoloji cəhətdən müstəz’əf halında olan insanlara, cin və insdən olan şeytanların mədəni hücumları barəsində xəbərdalıq verir və bu hücumlar qarşısında müdafiə olunmaq və ondan xilas olmaq yolunu ilahi alimlərin möhkəm proqramları hesab edir.

# Otuzuncu fəsil: Alimlərin məqamı

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və sələm) buyurur:

إِنَّ اللّه و مَلائِكَتَهُ حَتَّى النّملَةَ فِى حُجرِها وَ حَتَّى الحُوتَ فِى البَحرِ يُصلّونَ عَلَى مُعَلِّمِ النَّاسِ الخَيرَ

«**Həqiqətən Allah, Onun mələkləri, hətta yuvasında olan qarışqa və dənizdə olan balıq belə,**

**insanlara xeyir öyrədən şəxslərə salavat və rəhmət göndərir.**»[1]

## İncə nöqtələr:

1. Allah zikr əhlidir və Onun zikri Peyğəmbərə, onun Əhli-beytinə, ilahi elm müəllimlərinə və alimlərinə rəhmət göndərməkdir.

2. İlahi alimlər Peyğəmbərlərlə bir cərgədədir: çünki başqa bir rəvayətdə buyurulur ki,

إِنَّ اللَّهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى النَّبِيِّ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا صَلُّوا عَلَيْهِ وَسَلِّمُوا تَسْلِيمًا

«**həqəqətən Allah və Onun mələkləri Peyğəmbərə salavat göndərir.**»[2]

3. Alimin, elmin və elm öyrətməyin dəyərini bütün varlıqlar, mələklər, hətta kiçikli-böyüklü dəniz və quru heyvanları başa düşürlər.

Amma çox təəssüflər olsun ki, bə'zi insanlar bu həqiqəti dərk etmirlər: »

أَكْثَرُهُمْ لاَ يَعْقِلُونَ

«**Camaatın əksəriyyəti düşüncə əhli deyil.**»[3]

Başqa bir ayədə buyurulub:

أَكْثَرُهُمْ لاَ يَشْكرون

«**Camaatın əksəriyyəti şükrü yerinə**

---

[1] «Kənzül-ümmal», 28736-cı hədis

[2] «Əhzab» surəsi, ayə:56

[3] «Maidə» surəsi, ayə:103

**yetirmirlər.**»[1]

أَكْثَرُهُمْ يَجْهَلُون

«Camaatın əksəriyyəti cahildir.»[2]

أَكْثَرُهُمُ الفاسِقُون

«**Camaatın əksəriyyəti günah və fisq əhlidir.**»[3]

وَ أَكْثَرُهُمُ الكافِرُون

«**Camaatın əksəriyyəti küfr və nankorluq əhlidir.**»[4]

بَلْ اَكْثَرُهُمْ لاَ يَعْلَمُونَ الحَقَّ فَهُم مُعرِضُونَ

«**Camaatın əksəriyyəti haqqı bilmir və nəticədə ondan üz döndərirlər.**»[5]

وَ أَكْثَرُهُمْ كَاذِبُون

«**Camaatın əksəriyyəti yalançıdır.**»[6]

أَكْثَرُهُمْ لاَ يَعْلَمُون

«**Camaatın əksəriyyəti elm əhli deyildir, yə'ni əksər hallarda həqiqət barədə cahildirlər.**»[7]

Buna görə də elm öyrənib-öyrətməyin dəyərini bilmir və bu məsələyə diqqət yetirmirlər.

---

[1] «Yusif» surəsi, ayə:60
[2] «Ən'am» surəsi, ayə:111
[3] «Tövbə» surəsi, ayə:8
[4] «Nəhl» surəsi, ayə:83
[5] «Ənbiya» surəsi, ayə:24
[6] «Şüəra» surəsi, ayə:223
[7] «Loğman» surəsi, ayə:25

4. Alimlər insanlara nicat verən fəzilətləri, yaxşılıqları və xeyirləri öyrədənlərdir.

# Otuz birinci fəsil: Düşmən müqabilində alimlərin varlığının tə’siri

Peyğəmbər-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur:

وَالَّذى نَفسُ مُحَمَّدٍ بِيَدِه لَعالمٌ واحدٌ أشَدُّ عَلى إبلِيس مِن ألفِ عابِدٍ لأنَّ العابِدَ لِنَفسِهِ و العالِمُ لِغَيرِهِ

«**Mühəmmədin canı əlində olan şəxsə (Allaha) and olsun, bir alim İblisə qarşı min abiddən güclüdür. Çünki abid özü üçün, alim isə başqaları üçün çalışır.**»[1]

### İncə nöqtələr:

1. Cin və insdən olan şeytanlar müqabilində alimin varlığının dəyəri bütün insanlardan üstün və güclüdür.

2. Düşmənin e’tiqadı və mədəni hücumları qarşısında bir nəfər ilahi alimin varlığı alim olmayan bir ordudan güclüdür.

3. Alimin düşüncəsi həm özünə, həm də başqalarına nicat verəndir.

---

[1] «Kənzül-ümmal», 28908-ci hədis

4. Bir şəxsin ibadəti hamıya tə’sir etmir, yalnız onun özündə xülasələnir, lakin elm və əməl baxımından alimlərin vücudu hamıya tə’sirlidir.

5. Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in düşmənlərin dini ideoloji və e’tiqadi hücumları qarşısında ilahi alimlərin rolunu and içərək göstərməsindən onun əhəmiyyəti mə’lum olur.

# Otuz ikinci fəsil: Alimlər Peyğəmər (s) məqamına Ən yaxın şəxslərdir

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur:

أقرَبُ النّاسِ مِن دَرَجَةِ النُّبُوَةِ أهلُ العِلمِ

«**Camaat içərisində Peyğəmbərlik məqamına (dərəcəsinə) ən yaxın olan şəxs elm əhlidir.**»[1]

Buna görə də ilahi alimlər camaatın müxtəlif elmi, ədəbi və əməli, eləcə də məs’uliyyət qəbul etmək və insanları hidayət etmək baxımından Peyğəmbərlik məqamına ən yaxın olan şəxslərdir.

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) başqa bir hədisdə buyurur:

---

[1] «Kənzul-ummal», 28892-ci hədis

طالِبُ العِلمِ رُكنُ الإسلاَم وَ يُعطِى أجرَهُ مَعَ النَّبيِّن

«**Elm tələb edən (axtaran) şəxs islamın rüknüdür və öz əcrini Peyğəmbərlərlə birlikdə alar.**»[1]

### İncə nöqtələr:

1. Bu hədisdə «alimlərin dərəcəsinin Peyğəmbərlərə yaxın olması» dedikdə onların ilahi vəzifə və məqamları, dini məs'uliyyətləridir, belə ki, alimlər Peyğəmbərlərin varisləridir, yə'ni onların risalət məs'uliyyətlərini irs aparırlar.

2. İlahi alimin təbliğinin üstünlük olmaq cəhətindən dəyəri Peyğəmbərlərin təbliği ilə bir səviyyədə bəyan olunmuşdur və bu da Allah dərgahında alimlər tərəfindən dinin yayılma məs'uliyyətini göstərir.

3. İnsanların alimlərin məs'uliyyəti qarşısında göstərdikləri qüsurlu hallar, səhlənkarlıqlar və onların yol göstərməsindən bəhrələnməmək öz ardınca çoxlu çatışmamazlıqlar gətirər.

## Otuz üçüncü fəsil: Alimlərin qürbəti

Cəhalətin hakim olduğu cəmiyyətdə elm, düşüncə və əql son dərəcədə qürbətdə olur. Geridə

[1] «Məhəccətul-beyza», 1-ci cild, səh.14

qalmış üçüncü dünya ölkələrində savadsızların sayı başqa avropa ölkələrindən qat-qat artıqdır. Misal üçün, avropa ölkələrində bir-iki faiz savadsız tapıldığı halda Əfqanıstanda yeddi faiz savadlı, doxsan üç faiz savadsız vardır. İranda da inqilabın əvvəllərində əlli faiz savadsız var idi. Şübhəsiz bu ölkələrdə kitab və kitabxana, elm və alim, əql və təfəkkür camaat tərəfindən tərk olunmuş bir şey hesab olunur.

İmam Əmirəl-mö'minin Əliyyibni Əbitalib (əleyhissalam) buyurur:

أَلْعُلَمَاءُ غُرَبَاءٌ لِكِثْرَةِ الجُهَّال بَينَهُم

«**Alimlər, aralarında çox cahil olduğuna görə qəriblər sayılır.**»[1]

## İncə nöqtələr:

1. Cəmiyyətin cəhalətdən xilas olunması üçün alimlərlə, kitab və kitabxanalarla barışıq yaradıb onlarla ünsiyyətdə olmaq lazımdır.

2. Savadsızlıq səviyyəsini azaltmaq lazımdır ki, elm cəhalətin yerinə keçsin.

3. Ən böyük dərd bundan ibarətdir ki, cəmiyyətin zahiri savadı vardır, amma həqiqətən cəhalətdə yaşayır və kor-korana, təfəkkür və heç bir məqsəd olmadan başqalarının əməlini təqlid edirlər. Bunlar həqiqi cahildirlər. Onların da müqabilində

---

[1] «Biharul-ənvar», 75-ci cild, səh.41.

mədrəsəyə getməyən, yazıb-oxumağı bilməyən, lakin e'tiqadi müstəqilliyə və mə'rifətə malik olan şəxslər əslində alimdir, başqaları isə cahildir. Tarixdə dəfələrlə də baş vermişdir ki, yüksək səviyyədə savada malik olan savadlılar dərs görməyən, yazıb-oxumaq bilməyən, amma həqiqi mə'rifət sahibi olanların tə'siri altına düşmüşlər.

## Otuz dördüncü fəsil: Camaatın ən alim şəxsi

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur:

أعلَمُ النَاسِ مَن جَمَعَ عِلمَ النّاسِ إلَى عِلمِه

«**Camaatın ən biliklisi o kəsdir ki, başqalarının elmini öz elminə əlavə etsin.**»[1]

Başqa bir rəvayətdə nəql olunur:

يا نَبِى اللَّهِ اُحبُّ أن أكُونَ أعلَمُ النّاسِ؟ قَالَ: إتَّقِ اللَّهِ تَكُن أعلَمُ النَّاسِ

Bir nəfər dedi: «**Ey Peyğəmbər, camaatın ən alimi və biliklisi olmaq istəyirəm!**»

Peyğəmbər buyurdu: «**Allah qarşısında təqvalı ol ki, camaatın ən biliklisi olasan.**»[2]

---

[1] «Biharul-ənvar», 77-ci cild, səh.112

[2] «dənzül-ümmal», 44154-cü hədis

İmam Sadiq (əleyhissalam) buyurur: «Əmirəl-mö′minin Əliyyibni Əbitalib (əleyhissalam)-dan insanların ən biliklisinin kim olduğu barədə soruşduqda buyurdu:

مَن جَمَعَ عِلمَ النَّاسِ إِلَى عِلمِه

«**(Ən bilikli şəxs) o kəsdir ki, camaatın elmini öz elminə əlavə etsin.**»[1]

## İncə nöqtələr:

1. Bizim cəmiyyətimizdə qədimdən indiyə qədər fəqihlərin və din alimlərinin biliklisi barəsində camaat arasında söz olmuşdur. Burada da bəyan olundu ki, başqalarının elminə əhatəli olan şəxs onların ən elmlisidir.

2. Elm təklikdə insana nicat verən olmadığından, başqa rəvayətlərdə fəqihlərin ən elmlisinin şərtləri bəyan olunmuşdur, buna görə də zöhd (dünya malına uymamaq), vərə′ (təqvanın ən yüksək mərhələsi) və bu kimi işlər böyük cihad adlandırılır, nəfslə mübarizə etmək, vacibləri yerinə yetirib günahlardan çəkinmək insanın camiuş-şərait fəqih məqamına çatmasına səbəb olur.

---

[1] «Biharul-ənvar», 1-ci cild, səh.167